# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDU

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun 2015-ci ilin əsas qrant müsabiqəsi çərçivəsində təqdim olunmuş kompleks elmi-tədqiqat proqramlarının (EİF-KETPL-2015-1(25)) qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə aralıq**
***(rüblük olaraq 4-cü mərhələ)***

## YEKUN ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Folklorda azərbaycançılıq və multikulturalizm**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **İmanov Muxtar Kazım oğlu**
Qrantın məbləği: **100 000 manat**
Layihənin nömrəsi: **EİF-KETPL-2-2015-1(25)-56/51/5-M-45**
Müqavilənin imzalanma tarixi: **24 aprel 2017-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 may 2017-ci il – 01 may 2018-ci il**
*Layihənin IV **mərhələ** üzrə (rüb) məbləği:*

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| | |
|---|---|
| **1** | Layihənin həyata keçirilməsi üzrə cari rübdə yerinə yetirilmiş **elmi işlər** |
| | “Folklorda azərbaycançılıq və multikulturalizm” layihəsi çərçivəsində nəzərdə tutulmuş tədqiqat mövzuları üzərində cari rübdə də araşdırmalar davam etmişdir. Keçən rübdə layihə rəhbəri Muxtar İmanovun, layihə icraçıları Ramazan Qafarov, İlkin Rüstəmzadə, Qalib Sayılov və Mehparə Rzayevanın tədqiqat mövzularını tamamladıqlarını yazmışdıq. Bu mərhələdə digər dörd mövzu üzərində də tədqiqat işləri tamamlanmışdır. Həmin mövzular bunlardır:<br>1. Əziz Ələkbərov. “Tarixi Azərbaycan bölgələri folklorunda azərbaycançılıq konsepti: tipləri, formaları və etnokulturoloji spesifikası”<br>2. Afaq Ramazanova. “Azərbaycanda tatlar və tat folkloru”<br>3. Mətanət Yaqubqızı. “Oğuz – Qəbələ bölgəsində yaşayan xalqların və etnik qrupların folkloru”<br>4. Ləman Süleymanova. “Avarların etnik mədəniyyəti və avar folkloru”<br>“Folklorda azərbaycançılıq və multikulturalizm” layihəsi çərçivəsində yerinə yetirilən **“Tarixi Azərbaycan bölgələri folklorunda azərbaycançılıq konsepti: tipləri, formaları və etnokulturoloji spesifikası”** mövzusu üzərində əvvəlki üç rübdə görülən iş tamamilə yekunlaşdırılmış, folklor mətnləri üzərindəki müqayisəli-tipoloji araşdırma başa çatdırılmış, ümumiləşdirilmiş, konkret elmi nəticələrə gəlinmişdir. Mövzu üzrə araşdırılmış problem beş istiqamət – “Azərbaycançılıq nədir?”, – “Azərbaycançılıq ideyasının tarixi”, “Azərbaycançılığın coğrafiyası”, “Folklorda azərbaycançılıq”, |

"Qərbi Azərbaycan folklorunda azərbaycançılıq konsepti" üzrə nəzərdən keçirilmişdir:

– "Azərbaycançılıq nədir?" adlanan ilk bölmədə azərbaycançılıq konseptinin mahiyyətinə aydınlıq gətirilmiş, "azərbaycançılıq deyəndə nə nəzərdə tutulur?" sualına cavab verilmişdir. Bu suala aydınlıq gətirərkən ümummilli lider Heydər Əliyevin azərbaycançılıq ideologiyası ilə bağlı fikir, mülahizə və tezislərinə söykənilmiş, onun: "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq" düşüncəsi ideoloji baza kimi araşdırmaya cəlb edilmişdir.

Bu bölmədə azərbaycançılığın milli dövlətçilik ideologiyası kimi seçilməsində həlledici rolu terminin məna yükünün oynadığı, azərbaycançılığın – "azərbaycançı olmaq" demək olduğu, yəni dinindən, dilindən, milliyyətindən, sosial vəziyyətindən, regionundan, cinsindən, yaşından asılı olmayaraq, Azərbaycanda yaşayan hər kəsin bu ölkənin maraq və mənafelərini birinci sıraya qoymalı olduğu ön plana çəkilmişdir.

"Azərbaycançılıq ideyasının tarixi" adlanan bölmədə azərbaycançılıq ideyası tarixi araşdırmaya cəlb edilərək bu ideyanın, əslində, Azərbaycan xalqının bir etnovahid, etnik subyekt olaraq tarix səhnəsinə qədəm qoymasından başladığı qənaətinə gəlinmişdir. Başqa sözlə, əsaslandırılmışdır ki, azərbaycançılıq ideologiyasının tarixi, Azərbaycan xalqının tarixi qədər qədimdir. Bu qənaətə gələrkən Azərbaycan xalqının keçdiyi tarixi inkişaf yoluna diqqətlə nəzər yetirilmiş, mövcud elmi-nəzəri baxışlar təhlil edilmişdir.

"Folklorda azərbaycançılıq" adlanan bölmədə milli-mənəvi dəyərlər sırasında önəmli yer tutan folklorun bu ümummilli ideyaya, dövlətçilik ideologiyasına xidmətindən bəhs edilmişdir. Təsadüfi deyil ki, demək olar ki, bütün tədqiqatçılar Azərbaycan folklorunu azərbaycançılıq ideyasının mənbələrindən biri, mifi isə bu ideologiyanın "tərkib hissəsi", "ana bətni", "ilkin mərhələsi" hesab edirlər.

Azərbaycançılıq ideyası Azərbaycan tarixinin və mənəviyyatının parlaq şifahi abidəsi olan "Kitabi-Dədə Qorqud" və "Koroğlu" dastanlarında da öz əksini tapmışdır. Bu da təbiidir. "Kitabi-Dədə Qorqud" tayfa-qəbilə birləşmələri çağındakı bahadırlıq ənənələrindən tutmuş, XIII-XIV əsrlər də daxil olmaqla, böyük bir tarixi kəsimin mifoloji elementləri ilə səsləşən bədii salnamədir. "Kitabi-Dədə Qorqud" həm də Azərbaycan xalqının tarixidir, onun ictimai-siyasi varlığının poetik inikasıdır" (Vahid Ömərov). Başqa sözlə, akademik Tofiq Hacıyevin sözləri ilə desək, "Dədə Qorqud Kitabı" tariximizin ilk yazılı dərsliyidir.

Tədqiqatın sonuncu bölməsi "Qərbi Azərbaycan folklorunda azərbaycançılıq konsepti" adlanır. Mövzu "tarixi Azərbaycan bölgələri folklorunda azərbaycançılıq konsepti" olduğundan bu bölmədə əsas diqqət belə "tarixi Azərbaycan bölgələri"ndən olan Qərbi Azərbaycan (indiki Ermənistan Respublikası) ərazisinə, bu ərazidə minillər boyu yaşamış azərbaycanlıların bu bölgə ilə bağlı bir çox tarixi prosesləri özündə yaşadan folklor mətnlərinə yönəldilmişdir. Başqa sözlə, tədqiqatın obyekti kimi ilk növbədə Qərbi Azərbaycanın müxtəlif bölgələrindən, xüsusilə soydaşlarımızın 1988-ci il deportasiyasına qədər yaşamaqda davam etdikləri Göyçə, Dərələyəz, Zəngəzur, Qaraqoyunlu, Dərəçiçək, Ağbaba, Şörəyel, Vedibasar, Zəngibasar, Gərnibasar, İrəvan, Loru-Pəmbək və digər mahallarından toplanmış folklor materialları götürülmüşdür.

Tədqiqatda irəli sürülən fikirlər Qərbi Azərbaycan folklor materialı əsasında öz təsdiqini tamışdır.

Cari rübdə tamamlanmış mövzulardan biri də Afaq Ramazanovanın **"Azərbaycanda tatlar və tat folkloru"** adlı elmi tədqiqat işidir. Müəllif tədqiqatda tat mədəniyyəti və folkoruna dair elmi ədəbiyyatları təhlil etmiş, xüsusən də XIX əsrin sonlarında – XX əsrin əvvəllərində rus şərqşünasları tərəfindən aparılmış tədqiqat və toplama işlərinə önəm vermişdir. Çünki həmin tədqiqatlar ya nəşr olunmamış, ya da yarımçıq nəşr olunmuşdur. Həmin tədqiqatlara müasir elmin və elmi dövriyyənin

| | |
|---|---|
| | tələbləri əsasında yenidən baxılmasının böyük əhəmiyyətini nəzərə alaraq “Azərbaycanda tatlar və tat folkloru” tədqiqatının bir hissəsi onların analizinə həsr edilmişdir.<br>Tədqiqatçı il ərzində Azərbaycanın müxtəlif ərazilərindən topladığı tat folklor materiallarını diktafon, video və maqnitofon lentlərindən yazıya köçürmüş və sistemləşdirmişdir. Bu mətnlər Azərbaycanda azsaylı xalqların folklor mənzərəsinin yaradılmasında mühüm əhəmiyyət daşıyır. Çünki bu mətnlərin bəziləri ortaq mənəvi dəyərlər və ortaq yaşayış tərzinin məhsulu kimi çıxış etsə də, onların arasında kifayət qədər orijinal və təkrarlanmayan, yalnız həmin azsaylı xalqa və ya etnik qrupa xas olan nümunələr tapmaq mümkündür. Məsələn, tatlardan qeydə alınmış Məməbədüş demonik obrazı və ya Lahıc tatlarından qeydə aldınmış Kələəmulə – saf və avam insan obrazı barəsində mətnlər yeni və orijinaldır. Tipoloji baxımdan Məməbədüş demonik obrazının kökü dünya və türk mifologiyasının ən yayğın demonik obrazı Hal anası, Albastı, Al qarısına bağlansa da, tatlarda bu obrazın səciyyəvi xüsusiyyətləri onları orijinal kimi tədqiq etməyə imkan verir. Yaxud Kələəmulə obrazı qədim rus folklorundakı Poşexonlarla və ya çağdaş rus folklorunudakı Çukça obrazı ilə tipoloji baxımdan tamamilə üst-üstə düşür.<br>Mətanət Yaqubqızının “**Oğuz – Qəbələ bölgəsində yaşayan xalqların və etnik qrupların folkloru**” adlı tədqiqat işində isə şimal bölgəsindən toplamış materialların tam elmi təhlilə cəlb edilərək bölgədə yaşayan xalqların şifahi irsi, etnik mədəniyyəti haqqında aydın təsəvvür yaradılmağa çalışılmışdır.<br>Ləman Süleymanovanın **“Avarların etnik mədəniyyəti və avar folkloru”** adlı tədqiqat işində avarların dili, dini, Azərbaycan ərazisinə gəlmə tarixləri haqqında aydın təsəvvür yaradılır, eləcə də onlardan toplanmış folklor örnəkləri, etnoqrafik materiallar tədiq edilmişdir. Tədqiqatda vurğulanır ki, Azərbaycan türkləri üçün xarakterik olan dambır ifaçılığı və hayla yaradıcılığı azsaylı xalqlar arasında da geniş yayılmışdır. Bölgədə yaşayan digər xalqlar kimi avarlar da tənbur sənətinin inkişafı və yaşadılmasında böyük rol oynamışlar. Araşdırmada həmçinin məşhur avar tənburçuları, onların yaradıcılığı haqqında da geniş məlumat verilmişdir.<br>Araşdırmalara paralel olaraq cari rübdə hazır materialların ingilis dilinə tərcüməsi də davam etdirilmişdir. Keçən hesabatlarda Zaqatala rayonunda yaşayan saxurlardan toplanmış folklor örnəklərinin, həmçinin Layihə rəhbəri Muxtar İmanovun və layihə icraçısı Ramazan Qafarovun araşdırmalarının ingilis dilinə tərcüməsinin tamamlandığını qeyd etmişdik. Cari rübdə digər yeddi tədqiqatın da ingilis dilinə tərcüməsi tamamlanmışdır |
| **2** | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (cari rüb üçün, faizlə qiymətləndirməli) |
| | Layihə çərçivəsində cari rübün planında nəzərdə tutulan işlərin 80 faizi yerinə yetirilmişdir. Belə ki, qalan dörd tədqiqat mövzusu üzərində işlər yekunlaşmış, Masallı və Quba rayonlarından toplanmış folklor örnəklərinin üzü köçürülmüş, janrlara görə təsnifatı aparılmış və redaktəsi tamamlanmışdır. Yalnız qaraçı və ləzgilərdən toplanmış folklor materiallarının ingilis dilinə tərcüməsini tamamlamaq mümkün olmamışdır. Bu ilik oktyabr ayında həmin materialların da tərcüməsi tamamlanaraq Elm Fonduna təhvil veriləcəkdir. |
| **3** | Hesabat dövründə alınmış **elmi nəticələr**, onların yenilik dərəcəsi |
| | “Folklorda azərbaycançılıq və multikulturalizm” layihəsi çərçivəsində aparılan araşdırmalar zamanı aşağıdakı elmi nəticələr əldə edilmişdir:<br>– Azərbaycançılıq deyəndə ilk növbədə Azərbaycandakı bütün sosial təbəqələr və etnik qruplar arasında vahid və bölünməz vətən, milli birlik və həmrəylik ideyası başa düşülür. Azərbaycan təkcə Azərbaycan Respublikası ərazisində yaşayan Azərbaycan türklərinin və Azərbaycanı özünün tarixi vətəni hesab edən müxtəlif azsaylı xalqların vətəni deyil, həm də bütün dünya azərbaycanlılarının tarixi vətənidir və azərbaycançılıq ideologiyası həm də bütün dünya azərbaycanlılarının milli birlik və |

həmrəylik ideologiyasıdır. Buna görə də azərbaycançılıq Azərbaycan xalqının milli dövlətçilik ideologiyası olaraq Azərbaycanın dövlət müstəqilliyinin, azad, xöşbəxt gələcəyinin qarantıdır.

– Azərbaycan folkloru azərbaycançılıq ideologiyasının mənbəyini və mənşəyini təşkil edir.

– M.F.Axundov, H.B.Zərdabi, Ə.Hüseynzadə, Ə.Ağayev, Ə.Topçubaşov, M.Ə.Rəsulzadə, C.Məmmədquluzadə, Ü.Hacıbəyov, M.Ə.Sabir, H.Cavid kimi şəxsiyyətlərin fəaliyyəti sayəsində XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan milli ideologiyası formalaşdı. Həmin ideologiya azərbaycançılıq idi və tarixdə ilk dəfə 1918-ci ildə milli dövlətin – Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə nəticələndi. Bu dövrdə Azərbaycanın istiqlal məfkurəsinin üç təməl prinsipi – "türk millətindənəm, islam ümmətindənəm, Azərbaycan məmləkətindənəm" azərbaycançılıq ideologiyasının da təməl prinsipləri olaraq təsbit edilsə də, azərbaycançılıq ideologiyasının fəlsəfi təlim kimi sistemə salınması və müstəqil Azərbaycan dövlətçiliyinə tətbiqi birbaşa Heydər Əliyevin adı ilə bağlıdır və onun tarixi xidmətidir.

– Azərbaycançılıq milli ideologiya kimi, təkcə Azərbaycan Respublikası hüdudlarını əhatə etmir, bu hüdudlarda formalaşıb, bu hüdudlarda öz parametrlərini sərgiləmir. Azərbaycançılıq konsepti azərbaycanlıların minillər boyu yaşadıqları bütün tarixi Azərbaycan torpaqlarında, müxtəlif türk tayfa birliklərinin və xalqlarının onlarla qonşuluqda yaşayan müxtəlif etnoslarla birgəyaşayışı kontekstində formalaşıb və inkişaf edib. Fərqli bölgələrdə fərqli etnoslarla birgəyaşayış, fərqli dil, adət və ənənələrin təması azərbaycançılıq konseptinin müxtəlif tip və formalarının müəyyənləşməsində də mühüm rol oynamışdır.

Qərbi Azərbaycan (indiki Ermənistan Respublikası) ərazisi də bu sırada istisna təşkil etmir. Minillər boyu bütöv Azərbaycanın tərkib hissəsi və qədim türk-oğuz yurdu olan bu ərazinin əzəli sakinləri – Azərbaycan türkləri bölgənin Rusiya tərəfindən işğalından sonrakı son 200 il ərzində çox ağır və ağrılı bir tale yaşamışlar. Rusiyanın bölgənin erməniləşdirilməsi və xristianlaşdırılması istiqamətində atdığı addımlar azərbaycanlıları öz milli varlıqlarını, bu varlığın şərti olan milli dəyərlərini – dilini, mədəniyyətini, ədəbiyyatını, adət-ənənəsini qoruyub saxlamaq qayğısına qalmaq zərurəti qarşısında qoymuşdur. Qərbi azərbaycanlı soydaşlarımız bu milli dəyərləri qoruduqca, yaşatdıqca, qorumaq və yaşatmaq uğrunda mübarizə apardıqca xalqımızın tarixi azərbaycançılıq ənənələrini yaşatmış və inkişaf etdirmişlər. Beləliklə, Azərbaycanın tarixi bölgələrindən olan Qərbi Azərbaycan bütün maddi-mənəvi dəyərləri ilə ümumazərbaycan etnomədəni sisteminin tərkib hissəsidir və ən qədim zamanlardan bəri formalaşmaqda olan azərbaycançılıq ideologiyasının yaranmasında və təşəkkülündə özünəməxsus rolu və iştirakı olmuşdur. Qərbi Azərbaycan folklor materialları xalqın keçib gəldiyi tarixi yolun şifahi yaddaşı kimi bu prosesi də qoruyub saxlamışdır.

– "Azərbaycanda tatlar və tat folkloru" adlı elmi tədqiqatın yazılması üçün toplanan elmi ədəbiyyatın analizi və təhlili, həmçinin XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda yaşayan azsaylı xalqlar barəsində yazılmış elmi-tədqiqat əsərlərinin arxivlərdən üzə çıxarılması yeni qənaətlər əldə etməyə imkan vermişdir. Məsələn, bu elmi ədəbiyyatlarda XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda yaşayan milli azlıqların sayı barədə dəqiq və düzgün məlumatlar verilmişdir. Bu statistik məlumatlardan qeyd olunan dövrdə Azərbaycanda nə qədər tatın yaşaması, bu tatların harada məskunlaşması, vaxtilə mövcud olmuş, amma indi artıq qeydə alınmayan tat məskənləri və kəndləri barəsində məlumat əldə etmək mümkün olmuşdur. Tədqiqatda vaxtilə mövcud olmuş tat yaşayış məskənləri ilə hazırki tat yaşayış məskənlərinin qarşılaşdırılması zamanı tat coğrafiyasının necə daraldığı müşahidə olunur. Dünyada gedən qlobal proseslər, obyektiv və subyektiv səbəblərdən xristian tatların yaşadığı ərazilər indi tamamilə boşalmış, yəhudi tatların əraziləri say etibarilə azalmış, müsəlman tatların yaşadığı yaşayış məskənləri isə qismən boşalmışdır. Əldə edilən statistik məlumatlar azsaylı xalqların sayının çağdaş dönəmlə müqayisəsinə imkan vermişdir ki, bu da çox böyük əhəmiyyət daşıyır.

– Arxiv materiallarından və XIX əsrin sonu rus mənbələrindən Azərbaycanda məskunlaşan və indi tamamilə itib batmış tat qrupu – xristian tatlar barəsində dolğun məlumat əldə edilmiş, onların folklor

| | |
|---|---|
| | örnəkləri (nağıllar) qeydə alınmışdır. Xristian tatlara dair XIX əsrin sonu – XX əsrin əvvəllərinə dair məlumatların XX əsrdə bu etnik qrup barəsindəki məlumatlarla müqayisə edilməsi yeni sayıla bilər.<br>– Avarlardan qeydə alınmış alqış və qarğışların deyilməsi ilə bağlı faktlar onu göstərir ki, vaxtilə bu bölgədə, eləcə də bütün Azərbaycanda alqış və qarğış demək xüsusi mərasim formasında icra olunurmuş.<br>– Mövlud mərasimi şimal-qərb bölgəsində yaşayan müxtəlif xalqlar arasında müşahidə olunsa da, Azərbaycan türklərinin keçirdiyi Mövludlarda müşahidə olunan inanclar bölgənin digər xalqlarında yoxdur.<br>– Avar etnoqrafiyasında (xüsusilə də, avar toylarında) əvvəllər müəyyən fərqliliklər mövcud olsa da, son dövrlərdə bu fərqlər aradan qalxmağa başlamışdır. Müasir dövrdə keçirilən toy mərasimləri bölgədə dominant xalq olan Azərbaycan türklərininki ilə uyğunluq təşkil edir. |
| **4** | Layihənin yerinə yetirilməsi zamanı istifadə olunan üsul və yanaşmalar |
| | **Tədqiqatın** nəzəri-metodoloji əsasında başlıca olaraq dünya və milli mədəni-nəzəri fikrin çağdaş elmi tezisləri, o cümlədən dünya folklorşünas və etnoqraflarının multikultural dəyərlərin araşdırılması istiqamətində əldə etdiyi son nəticələr durur. Təhlillər müqayisəli-qarşılaşdırma prinsipi əsasında aparılmış, tədqiqatda tarixi-tipoloji metoddan istifadə olunmuş, sistemləşdirmə və müqayisə aparmaqla nəticələr əldə edilmişdir. |
| **5** | Layihə üzrə elmi nəşrlər (məqalələr, monoqrafiyalar, icmallar, konfrans materialları, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə) *(surətlərini əlavə etməli!)* |
| | Cari rübdə aşağıdakı məqalələr çapa təqdim olunmuşdur:<br>1. Əziz Ələkbərli. Tarixi Azərbaycan bölgələri folkorunda Azərbaycançılıq konsepti: tipləri, formaları və etnokulturoloji spesifikası / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. II cild, Bakı: “Elm və təhsil”, 2017, s. 27-37 (surəti hesabata əlavə olunur).<br>Məqalədə azərbaycançılıq ideologiyasının məzmununa və mahiyyətinə aydınlıq gətirilərək göstərilmişdir ki, bu ideologiya Azərbaycan adlı coğrafiyada tarixən yaşayan xalqın – Azərbaycan türklərinin, yəni azərbaycanlıların və bu ərazidə qədimdən yaşayıb, özünü bu vətənin övladı sayan etnik xalqların milli və dövlətçilik ideologiyasıdır. Bu ideologiyanın kökləri qədim mifoloji dünyagörüşünə söykənmiş və günümüzə qədər bir çox mərhələlərdən keçib gəlmiş, ən müxtəlif tip və formalarda təzahür etmişdir. Məqalədə bu ideologiyanın folklorda, o cümlədən Azərbaycanın tarixi bölgələrindən olan Qərbi Azərbaycan folklorunda təzahür elementləri ətraflı nəzərdən keçirilmişdir.<br>2. Afaq Ramazanova. The lahijs in the multicultural sphere of Azerbaijan and the Lahij folklore // 6th International conference “Diaspora, Transnationalism, Transculturalism and Inter-Cultural communications as new forms of social capital. Euro-Balkan University (Macedonia), Institute for Socio-Cultural Anthropology of Macedonia, Skopje, Macedonia MIRAS- Social Organization in Support of Studying of Cultural Heritage, Baku, Azerbaijan, Institute for Advanced Studies, Koszeg, Hungary, Selcuk University, Konya, Turkey, Ohrid, Macedonia, 17-19 january 2018 (surəti hesabata əlavə olunur).<br>3. Mətanət Yaqubqızı. Müxtəlif xalqların və etnik qrupların ortaq folklorunun yaranma mərhələləri// “Dədə Qorqud” elmi-ədəbi toplu, Bakı, 2017, II (61), səh: 71-83 (surəti hesabata əlavə olunur).<br>Məqalədə Azərbaycan ərazisində yaşayan xalqların folorundakı ortaq cəhətlər, bu ortaq cəhətləri formalaşdıran psixoloji, linqvistik, bədi, etnoqrafik və bəşəri faktorlardan bəhs olunur. Qeyd olunur ki, folklor nümunələri yaranarkən: 1) ilkin fikir kimi psixoloji cəhətdən formalaşır, 2) linqvistik vahid şəklində yaranır, 3) bədiiləşir, 4) etnoqrafik cəhətdən möhürlənir, 5) bəşəri mahiyyət qazanır. İlk iki mərhələ istənilən dil vahidinin yaranmasına aid edilə bilər. Bədiiləşmə prosesi bəzən ədəbi fiqurlar, bəzən isə dilin digər potensial imkanları hesabına reallaşır. Etnoqrafik möhürlənmə prosesi milli, etnik və digər spesifik elementlərin folklor örnəklərinə daxil edilməsidir. Məhdud miqdarda folklor örnəkləri |

| | |
|---|---|
| | bəşəri mahiyyət qazanmaq imkanına malikdir. Bunun üçün həmin folklor nümunələri bəşəri ideya daşımalı və qısa formaya malik olmalıdır. Bəzi hallarda folklor nümunəsinin sadəcə ideyası, motivi və ya konkret bir obrazı bəşəri mahiyyət daşıyır. |
| **6** | İxtira və patentlər, səmərələşdirici təkliflər |
| | Yoxdur |
| **7** | Layihə üzrə ezamiyyətlər |
| | Cari rübdə layihə üzrə heç bir ezamiyyət qeydə alınmayıb. |
| **8** | Layihə üzrə elmi ekspedisiyalarda iştirak |
| | Ekspedisiyalarda iştirak qeydə alınmayıb. |
| **9** | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | Cari rübdə tədbirlərdə iştirak qeydə alınmayıb. |
| **10** | Layihə mövzusu üzrə elmi məruzələr (seminarlar, konfranslar, dəyirmi masalar və s. çıxışlar) |
| | Cari rübdə layihə üzrə elmi məruzələr qeydə alınmayıb. |
| **11** | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar |
| | Layihədə cihaz və avadanlıqların, mal və materialların alınması nəzərdə tutulmayıb. |
| **12** | Yerli həmkarlarla əlaqələr |
| | Layihə çərçivəsində azsaylı xalqların şifahi irsinin araşdırılması və lazımi materialların əldə edilməsi üçün yerli həmkarlarla əlaqələr yaradılmışdır. Məsələn, Şabran rayonu Dağ Bilici kənd mədəniyyət evinin nəzdində 1979-cu ildə yaradılmış “Xınayaxdı” tat folklor ansamblı ilə əlaqə yaradılmışdır. Bu folklor ansamblının repertuarı ilə tanışlıq onu göstərdi ki, artıq unudulmaqda olan tat mahnıları və tat toyları “Xınayaxdı” ansamblının fəaliyyəti sayəsində bərpa edilmişdir. Ezamiyyət zamanı ansambl üzvlərinin iştirakı ilə mərasimlərə baxılmışdır. Bu ansamblla əlaqələrin yaradılması gələcəkdə onların Respublikada keçirilən folklor festivallarında və tədbirlərində, xüsusilə Folklor İnstitutunun keçirdiyi folklor tədbirlərində iştirakının təmin edilməsi məqsədi daşıyır. Bundan başqa tez bir zamanda həmin ansamblın repertuarının videoya köçürülməsi barəsində də əməkdaşlıq nəzərdə tutulur.<br>Avarların etnik mədəniyyətinin öyrənilməsi məqsədi ilə layihə icraçısı Ləman Süleymanova Balakən rayon sakini Akif Məmmədli, Zaqatala rayon Maqov kənd İcra nümayəndəsi Qardaşov Məmmədkamil Yaqub oğlu, həmin kəndin sakini rus dili və ədəbiyyatı müəllimi Borayev Murtuzəli Mohuma oğlu, Zaqatala rayon Danaçı kənd İcra nümayəndəsi Vaşiyev Məmməd Abdurahman oğlu, həmin kəndin “Folklor evi”nin müdiri Siracov Mohuma İsmayıl oğlu, Zaqatala rayon Aşağı Çardaqlar kənd İcra nümayəndəsi Musayev Nəcməddin Kamil oğlu, Zaqatala rayon Car kənd sakini incəsənət işçisi Mahmudov Əsabəli Məhəmməd oğlu, Zaqatala rayon Kebeloba kənd İcra nümayəndəsi Yalıyev Məhəmmədvəli Kamil oğlu ilə görüşmüş, fikir mübadiləsi aparmışdır.<br>Layihə icraçısı Mətanət Yaqubqızı isə Şəki Zona Elmi Mərkəzinin direktoru fəlsəfə doktoru Yusif Şükürlü, fəlsəfə doktoru Əli Süleymanov ilə, eləcə də Şəki Müəllimlər Universitetinin dekanı filologiya üzrə fəlsəfə doktoru Ulduz Mürşüdova ilə görüşmüş, bölgədə yaşayan xalqların və etnik qrupların folkloru, eyni zamanda folklorda azərbaycançılıq və multikulturalizm mövzularında məsləhətləşmələr və fikir mübadiləsi aparmışdır. |
| **13** | Xarici həmkarlarla əlaqələr |
| | “Diaspora, Transnationalism, Transculturalism and Inter-Cultural communications as new forms of |

| | |
|---|---|
| | social capital" və "Научные исследования в сфере гуманитарных наук: открытия XXI века" konfransları zamanı xarici həmkarlarla əlaqə yaradılmış, hər iki elmi müəssisənin əməkdaşlarına layihə ilə bağlı geniş məlumat verilmişdir. |
| **14** | Layihə mövzusu üzrə kadr hazırlığı |
| | Layihədə kadr hazırlığı nəzərdə tutulmayıb. |
| **15** | Sərgilərdə iştirak |
| | Layihənin mövzusu ilə bağlı hansısa bir sərgidə iştirak qeydə alınmayıb. |
| **16** | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi |
| | Qeydə alınmayıb. |
| **17** | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. |
| | Cari dövrdə layihə icraçıları televiziya kanallarında mövzu ilə əlaqədar müxtəlif verilişlərə dəvət olunmuş və layihə çərçivəsində görülən işlər, aparılan tədqiqatlar barədə ictimaiyyətə məlumat vermişlər. Məsələn, layihə icraçısı Ləman Süleymanova Mədəniyyət televiziya kanalında "Keçmişdən gələcəyə" verilişinin 17.03.2018-ci il tarixli "Novruz adətləri" adlı proqramında Lerik rayonunda yaşayan orandların və Zaqatala-Balakən bölgəsində yaşayan avarların adət-ənənələri haqqında danışmışdır.<br>Layihə icraçısı Mətanət Yaqubqızı cari ilin fevral ayında Azərbaycan radiosunda "Tərəkəmə" xalq yaradıcılığı verilişində Azərbaycan folklorunda tolerant və multikultural dəyərlərdən söhbət açmışdı. Layihə icraçısı həmin ay İctimai radioda "Qadın dünyası" verilişində Şəki-Zaqatala bölgəsində yaşayan xalqların və etnik qrupların adət-ənənələrini özündə əks etdirən mərasimlər haqqında, xüsusən də bu bölgədə yaşayan xalqların və etnik qrupların "nişan" mərasiminin özəllikləri haqqında geniş məlumat verib.<br>Bundan əlavə layihə icraçısı Mətanət Yaqubqızı 20.03.2018 tarixində İctimai radioda azsaylı xalqlara həsr olunmuş verilişdə Azərbaycanda yaşayan xalqlar və etnik qrupların yaz bayramları haqqında geniş məlumat vermişdi. Bu xalqların və etnik qrupların adət-ənənələrinin Azərbaycan türklərinin Novruz ənənələri ilə necə səsləşdiyini və özəlliklərini xüsusilə nəzərə çatdırmışdı. Həmçinin 21.03.2018 mart tarixində Azərbaycan Televiziyasının "Səhər" verilişində Azərbaycanda yaşayan xalqlar və etnik qrupların Bahar bayramı ilə bağlı keçirdikləri mərasimlərdən, bu mərasimlərin Azərbaycan türklərinin Novruzu ilə nə dərəcədə səsləşməsindən geniş söhbət açmışdır. |

**Layihə rəhbərinin imzası ____________________ İmanov Muxtar Kazım oğlu**

**Tarix ____________________**

QEYD: bütün hallarda uyğun olan bəndlər doldurulmalıdır.